**Azərbaycan Respublikası Vergilər Nazirliyinin**
**Tədris Mərkəzi**

**“Büdcə sistemi”**
**mövzusu üzrə**

# TƏLİM MATERİALI

| | |
|---|---|
| **Dinləyicilər** | Müsabiqə yolu ilə vergi orqanlarına staj müddətinə işə qəbul edilən əməkdaşlar; |
| **Təhsilalma forması** | əyani; |
| **Tədris müddəti** | 2 saat; |
| **Müəllif** | Qarayev İmran Əliyar oğlu, kafedra müdiri. |

**Tədrisin məqsədi -** mövzunun tədrisinin məqsədi dinləyicilərin büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu ilə yaxından tanış olması, Azərbaycan Respublikasının büdcə sistemi, büdcə siyasəti haqqında biliklərə yiyələnməsi və vergi daxilolmalarının büdcə gəlirlərində rolunun müəyyənləşdirilməsindən ibarətdir.

**Bakı - 2020**

## MÜNDƏRİCAT

1. Büdcənin iqtisadi məzmunu
2. Büdcə siyasətinin nəzəri əsasları
3. Büdcə təsnifatı
4. Dövlətin büdcə siyasəti
5. Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu
6. Dövlət büdcəsinin gəlirləri
7. Dövlət və vergi daxilolmaları
8. Büdcə siyasətinin təkmilləşdirilməsi
9. Azərbaycan Respublikasının 2018-cı ilin dövlət büdcəsi
10. Nəzarət sualları
11. Müstəqil öyrənmək üçün tapşırıqlar
12. Ədəbiyyat

## 1. Büdcənin iqtisadi məzmunu

Tarixən "budget" məvhumu ingilis mənşəli söz olub çanta, torba mənasında işlənmişdir. XVIII əsrdən etibarən maliyyə kateqoriyası kimi leksikona daxil olmuş, məna etibarilə xəzinə sözünə yaxın olmuşdur.

Büdcə – Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir.

Büdcə vasitəsilə dövlət və bələdiyyə orqanları öz üzərilərinə düşən vəzifə və funksiyaları yerinə yetirir. Belə ki, dövlət büdcə vəsaiti hesabına idarəetmə aparatını və ordunu saxlayır, sosial-mədəni tədbirləri həyata keçirir, iqtisadiyyatı tənzimləyir və inkişaf etdirir.

Büdcə dövlətin və bələdiyyələrin əsas maliyyə planı olmaqla, dövlət hakimiyyəti və bələdiyyə orqanlarına onların fəaliyyətini yerinə yetirməyə imkan verir. Büdcə dövlətin maliyyə vəziyyətini əks etdirir və buna əsasən ölkədə vergi siyasətini müəyyən edir. Büdcə ölkədə milli gəlirin və Ümumi daxili məhsulun (ÜDM) yenidən bölgüsünü həyata keçirir, pul vəsaitləri fondlarının xərc istiqamətlərini müəyyənləşdirir, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsini həyata keçirir.

Büdcə maliyyə münasibətlərini əks etdirən tarixi iqtisadi kateqoriyadır. Onun yaranması və inkişafı dövlətin yaranması və formalaşması ilə bilavasitə əlaqədədir. Dövlət büdcədən özünün funksiyalarının həyata keçirmək üçün əsas iqtisadi alət kimi istifadə edərək, eyni zamanda iqtisadi və sosial siyasəti də həyata keçirir.

Büdcə iqtisadi kateqoriya kimi maliyyə sisteminin tərkib hissəsidir, pul münasibətlərini təzahür etdirir və maliyyənin funksiyalarını özündə əks etdirir.

Büdcə aşağıdakı funksiyaları həyata keçirir:

- ümumi daxili məhsulun yenidən bölüşdürülməsi;
- iqtisadiyyatın dövlət tənzimlənməsi və həvəsləndirilməsi;
- dövlətin sosial siyasətinin həyata keçirilməsinin maliyyə təminatı;
- mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının yaradılması və istifadəsi üzərində nəzarət.

Büdcə vasitəsilə ÜDM-un yenidən bölgüsü eyni vaxtda həyata keçirilən və bir-biri ilə sıx əlaqədə olan ikitərəfli prosesdir:

- büdcənin gəlirlərinin yaradılması;
- büdcə vəsaitlərinin istifadəsi (büdcənin xərcləri).

Büdcə gəlirləri - Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə orqanlarının müvafiq qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada dövlət büdcəsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalardır.

Büdcə gəlirlərinin yaranması prosesində, ictimai istehsal prosesində yeni yaranan ÜDM-un bir hissəsinin dövlətin və bələdiyyələrin xeyrinə məcburi yenidən bölüşdürülməsi baş verir. Bununla dövlətlə və bələdiyyə orqanları ilə vergi ödəyiciləri arasında maliyyə münasibətləri yaranır.

## 2. Büdcə siyasətinin nəzəri əsasları

Dövlət öz funksiyalarını yerinə yetirmək üçün lazımi miqdarda maliyyə vəsaitini səfərbərliyə almalı və istifadə etməlidir ki, bu da əsasən büdcə vasitəsilə həyata keçirilir. Büdcə mexanizmi vasitəsilə maliyyə vəsaitinin toplanması və istifadəsi zamanı dövlətlə hüquqi və fiziki şəxslər arasında müəyyən maliyyə münasibətləri əmələ gəlir. Həmin maliyyə münasibətləri dövlətin **maliyyə-büdcə siyasəti** vasitəsilə tənzimlənir.

*Maliyyə-büdcə siyasəti* – hər bir konkret tarixi dövrdə cəmiyyətin idarə edilməsi, iqtisadi-sosial və siyasi vəzifələrinin həyata keçirilməsi məqsədilə dövlətin mərkəzləşdirilmiş və qeyri mərkəzləşdirilmiş pul vəsaiti fondlarının yaradılması və məqsədəuyğun istifadəsi ilə əlaqədar olaraq həyata keçirdiyi tədbirlər sistemindən ibarətdir.

Dövlətin büdcə siyasəti ilə əlaqədar bir-neçə konsepsiya vardır. *Birinci konsepsiyanın mahiyyəti ondan ibarətdir ki,* büdcə hər il tarazlaşdırılmalıdır. Son zamanlaradək milli iqtisadiyyatın sabit inkişaf etdirilməsini təmin edən büdcə, maliyyə siyasətinin məqsədini ifadə edən və hər il tarazlaşdırılan büdcə hesab edilirdi. Lakin bu problemi bir qədər dərindən və hərtərəfli nəzərdən keçirsək aydın olacaq ki, belə büdcə dövlətin fiskal siyasətinin səmərəliyini ya tamamilə aradan qaldırır, yaxud da onu azaldır. Bunu yaxşı başa düşmək üçün bu vəziyyəti nəzərdən keçirək. Tutaq ki, iqtisadiyyatda uzunmüddətli işsizlik hökm sürür və əhalinin gəlirləri gündən-günə azalır. Aydın məsələdir ki, bu zaman vergilər hesabına büdcəyə daxilolmalar azalacaqdır. Hökumət, büdcəni tarazlaşdırmaq üçün ya vergi dərəcələrini qaldırmalı, ya dövlət xərclərini ixtisar etməli, yaxud da onları bir-biri ilə əlaqələndirməlidir. Lakin bunlar ümumi tələbin daha da azalmasına səbəb ola bilər.

Büdcə siyasəti ilə əlaqədar *ikinci konsepsiyanın mahiyyəti ondan ibarətdir ki,* büdcə hər il yox, iqtisadi tsiklin gedişində tarazlaşdırılmalıdır. Bu konsepsiyanın məntiqi cəhətdən

əsaslandırılması olduqca sadədir. Belə ki, istehsalın azalmasının qarşısını almaq üçün hökumət vergiləri azaldır və dövlət xərclərini artırır, yəni şüurlu surətdə müvəqqəti olaraq büdcə kəsirinin artmasına şərait yaradır. İstehsalda yüksəlişə nail olunduqda vergilər artırılır, dövlət xərcləri isə ixtisar olunur. Büdcədə əmələ gələn müsbət qalıqdan, istehsal azaldığı dövrdə meydana çıxan kəsirin "örtülməsi" üçün istifadə edilir. Beləliklə, dövlət bu cür siyasət yeritməklə iqtisadi tsiklin müxtəlif mərhələlərində büdcəni tarazlaşdırır.

Bu konsepsiyanı reallaşdırdıqda meydana çıxan başlıca problem ondan ibarətdir ki, iqtisadi tsikldə azalma və yüksəliş, müddətlərinə görə eyni olmurlar. Məsələn, istehsalın uzun müddətli azalma meyli qısa müddətli yüksəliş dövrü ilə əvəz oluna bilər. İstehsal azaldığı dövrdə əmələ gələn büdcə kəsiri və dövlət borcu yüksəliş dövründə əldə edilən çox da böyük olmayan müsbət qalıqla örtülmür. Bu isə o deməkdir ki, büdcədə vaxtaşırı kəsir əmələ gəlir.

Azərbaycan Respublikasının dövlət büdcəsi dövlətin mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının yaradılması və istifadəsinin əsas maliyyə planıdır.

Dövlət büdcəsi dövlətin funksiyalarının yerinə yetirilməsi ilə əlaqədar olan xərclərin maliyyələşdirilməsini təmin edir. Dövlət maliyyəsinin növbəti həlqəsi büdcədənkənar məqsədli dövlət fondlarıdır. Büdcədənkənar fondlar həm sosial, həm də istehsal xarakterli olurlar. Büdcədənkənar fondlar ciddi təyinata malikdir. Onların yaradılmasında başlıca məqsəd əhaliyə sosial xidmətin genişləndirilməsi, infrastruktur sahələrin inkişafının stimullaşdırılması, iqtisadiyyatın aparıcı sahələrinin əlavə vəsaitlə təmin edilməsi və s. ibarətdir.

Dövlət büdcəsi dövlətin başlıca gəlir və xərclərini özündə birləşdirir.

Dövlət büdcəsi iqtisadiyyatın və sosial sferanın inkişafının təmin edilməsində mühüm alətdir. Onun köməyi ilə dövlət milli gəlirin bölüşdürülməsini təmin etməklə, ictimai istehsalın strukturunu dəyişdirir, təsərrüfatçılığın nəticələrinə təsir edir.

Dövlət büdcəsi gəlir və xərclər bölməsindən ibarətdir. Gəlir bölməsində müəssisə və təşkilatlardan, əhalidən və s. kateqoriyalardan alınan müxtəlif növ vergilər və digər gəlirlər, xərclər hissəsində isə milli iqtisadiyyatın, sosial-mədəni tədbirlərin, idarəetmənin maliyyələşdirilməsi və sair xərclər göstərilir. İqtisadiyyatın tənzimlənməsi üçün büdcə mexanizmindən istifadə edilməsi dövlətin sərəncamında olan pul vəsaitinin manevr etmək vasitəsilə həyata keçirilir. O, ictimai istehsalın sürət və proporsiyalarını məqsədyönlü təsir etməyə imkan verir.

## 3. Büdcə təsnifatı

.

Hələ XIX əsrin əvvəllərində rus iqtisadçısı M.Speranskiy özünün "Maliyyə planı"nda xərclərin təsnifatını yaratmışdır.

Dövlət xərclərinin ixtisar edilməsi bu qaydalara əsaslanırdı: zəruri xərcləri saxlamaq, faydalıları sonraya saxlamaq, artıq xərcləri isə kənara qoymaq. Əlbəttə, bu prinsip I Aleksandrın hökmranlığı dövrdə Rusiyadan büdcə kəsirinin büdcə xərclərində 85%-ə çatdığı bir şərait üçün nəzərdə tutulmuşdur.

Xərclər təsnifatını yaradarkən M.Speranskiy bü bölgünü 5 meyara ayırmışdır:

Birinci meyar – *idarəetmə növünə görə.* Yəni burada idarəetmə orqanına xərclərin nəzərdə tutulduğu göstərilir. Belə bölgü inzibati mənsubiyyətinə uyğun olaraq maliyyə vəsaitlərinin bölgüsünü nəzərdə tutur.

İkinci meyar – *zərurilik səviyyəsinə görə*. Bu halda xərclər zəruri, faydalı, artıq, faydasız xərclərə bölünür. Faydalı xərclər o zaman zəruri olar ki, onlar xalq təsərrüfatı sahələrinin inkişafına sərf edilmiş olsun.

Üçüncü meyar – *xərclərin məkanlığına görə.* Burada xərclərin ümumdövlət və yerli əhəmiyyətli olması nəzərdə tutulur. Ümumdövlət xərcləri dövlət büdcəsindən, yerli əhəmiyyətli xərclər isə yerli büdcələrdən maliyyələşdirilməlidir.

Dördüncü meyar – *xərclərin müddətliyidir.* Bu xərclər adi və fövqəladə xərclərə bölünür. Heç bir adi xərc fövqəladə xərclərə kifayət edə bilməz. Fövqəladə hallar üçün nəzərdə tutulan vəsaitlər hazırda ehtiyat fondundan ödənilir.

Beşinci meyar – *sabitlik.* Xərclərin ümumi həcmi daimi və dəyişkən ola bilər.

Bu cür təsnifatı qəbul edib xərclər üzrə maddələrin növlərinə görə elə qruplaşdırmaq olar ki, hər bir xərc növünə görə onların idarə edilməsi, zəruriliyi, məkanlığı, müddətliliyi və sabitliyi təmin edilmiş olsun.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi 1993-cü ildə büdcə gəlirləri və xərclərinin funksional, iqtisadi və inzibati (təşkilatlar üzrə) təsnifatını hazırlanmışdır. Həmin dövrdə Azərbaycan Respublikasında qəbul edilmiş və hazırda fəaliyyətdə olan, üç növə bölünən xərclər üzrə büdcə təsnifatı müəyyənləşdirilmişdir:

– *funksional*, dövlətin əsas funksiyalarının həyata keçirilməsi üçün büdcə vəsaitlərinin səviyyələr üzrə qruplaşdırılmasıdır;

– *iqtisadi*, bütün səviyyəli büdcələrin iqtisadi məzmununa görə qruplaşdırılmasıdır;

– *təşkilati*, dövlət büdcəsi vəsaitlərinin baş sərəncamçılar arasında bölüşdürülməsi üzrə qruplaşdırılmasıdır.

Vahid büdcə təsnifatının strukturu və tərkibi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən Beynəlxalq Valyuta Fondunun Dövlət Maliyyə Statistikasının tərtibi qaydaları (A Manual on Goverment Finance Statistics) adlı sənədində əks edilən beynəlxalq standartlara əsasən müəyyən edilir.

Qeyd etdiyimiz kimi, Azərbaycan Respublikası dövlət büdcəsinin təsnifatı fəaliyyət göstərir və bu təsnifatın strukturuna aşağıdakılar daxildir:

1. Azərbaycan Respublikası dövlət büdcəsi gəlirlərinin təsnifatı;
2. Azərbaycan Respublikasının dövlət büdcəsi xərclərinin funksional təsnifatı;
3. Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin iqtisadi təsnifatı;
4. Azərbaycan Respublikası dövlət büdcəsinin daxili və xarici maliyyələşdirmə mənbələrinin təsnifatı;
5. Azərbaycan Respublikası dövlət daxili və xarici borcunun növləri üzrə maliyyələşdirmənin təsnifatı;
6. Azərbaycan Respublikası dövlət büdcəsi xərclərini təşkilatlar üzrə təsnifatı;

*Azərbaycan Respublikası dövlət büdcəsi gəlirlərinin təsnifatı* müxtəlif səviyyəli büdcələrin gəlirlərinin qruplaşmasını təşkil edir və müxtəlif səviyyəli büdcələrin gəlirlərinin formalaşması mənbəyini müəyyən edən Azərbaycan Respublikasının qanunvericilik aktlarına əsaslanır.

Gəlirlər bölməsi onların mənbələri və alınması qruplarına görə konkret gəlir növlərini birləşdirir.

Gəlirlər 4 bölməyə bölünürlər:

1. "Vergilərdən daxilolmalar" bölməsinə aşağıdakı köməkçi bölmələr daxildir:

- gəlirlərdən (mənfəətdən) vergilər;
- məcburi dövlət sosial sığorta haqları;
- əmək haqqı fonduna və işçi qüvvəsinə vergilər (ehtiyat);
- mülkiyyətdən vergi;
- mal və xidmətlərdən alınan daxili vergilər;
- xarici iqtisadi fəaliyyətlə bağlı vergilər (gəlirlər);

Öz növbəsində köməkçi bölmələr konkret vergi növlərinə və rüsumlarına bölünürlər. Məsələn, mülkiyyətdən vergilərə daxildir:

- torpaq vergisi;
- əmlak vergisi;
- hədiyyələrdən və vərəsə qalan əmlakdan vergi;
- qiymətli kağızlarla əməliyyatlardan vergi.

2. "Vergi olmayan gəlirlər" bölməsinə aşağıdakı köməkçi bölmələr daxildir:

- mülkiyyətdən və sahibkarlıq fəaliyyətindən gəlirlər;
- inzibati tədiyyələr və rüsumlar;
- cərimə və sanksiyalar üzrə daxilolmalar;
- dövlət idarəçiliyi daxilində dövlət qulluqçularının sosial təminat və təqaüd fondlarına ayırmalar;
- vergi olmayan sair daxilolmalar.

3. "Əsaslı gəlirlər" bölməsinə (kod 3) aşağıdakı köməkçi bölmələr daxildir:

- əsaslı vəsaitlərin özəlləşdirilməsi;
- dövlətin maddi ehtiyatlarının satışından daxilolmalar;
- torpağın və qeyri-maddi aktivlərin satışından daxilolmalar;
- qeyri-rəsmi mənbələrdən əsaslı ödənişlər (transferlər);

4. "Rəsmi qaydada alınan vəsaitlər (transferlər)" bölməsinə aşağıdakı köməkçi bölmələr daxildir:

- xaricdən alınan vəsaitlər ;
- digər səviyyəli büdcələrdə alınan vəsaitlər.[1]

## 4. Dövlətin büdcə siyasəti

*Dövlətin büdcə siyasəti dedikdə,* büdcənin gəlir və xərclərinin, habelə büdcə kəsirinin idarə edilməsi ilə əlaqədar olaraq dövlətin həyata keçirdiyi tədbirlər nəzərdə tutulur.

Dövlətin büdcə siyasəti Azərbaycan Respublikasının Konstitusiyası ilə, ”Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə, ayrı-ayrı hakimiyyət orqanlarının büdcə prosesi sahəsində funksiyalarını və səlahiyyətlərini ifadə edən digər qanunvericilik aktları ilə müəyyən edilir. Büdcə siyasətini yalnız büdcə prosesinə aid etmək olmaz. Büdcə siyasəti haqqında qanun hər bir dövlət hakimiyyəti orqanının büdcə prosesindəki funksiyalarını dəqiq ifadə edir.

Dövlətin maliyyə siyasətinin tərkib hissəsi kimi büdcə siyasətinin işlənib hazırlanmasında dövlət hakimiyyətinin qanunverici və icraedici həlqələri iştirak edir. Müasir dövrdə Azərbaycan Respublikasının inkişaf xüsusiyyətləri şəraitində cari dövr perspektiv üçün ölkənin iqtisadi siyasətinin, o cümlədən maliyyə-büdcə siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsində Respublika Prezidenti aparıcı rol oynayır.

Ölkənin iqtisadi inkişafının və sosial sabitliyin təmin edilməsi məqsədi ilə Respublika Prezidenti dövlətin iqtisadi və sosial siyasətinin əsas istiqamətlərini müəyyən edir. Buna əsasən dövlətin Respublika hökuməti dövlətin maliyyə-büdcə siyasətini həyata keçirmək

[1] Qeyd: vergilərdən daxilolmalar (bölmə 1) + vergi olmayan gəlirlər (bölmə 2) = CARİ GƏLİRLƏR.
Cari gəlirlər + əsaslı gəlirlər (bölmə 3) + rəsmi qaydada alınan vəsaitlər (bölmə 4) = ÜMUMİ GƏLİRLƏR.

üçün müvafiq qanun layihələrini hazırlayır və müzakirə və qəbul üçün Milli Məclisə təqdim edir.

Həyata keçiriləcək büdcə siyasəti respublikada maliyyə sabitliyinin saxlanılmasını, inflyasiyanın aşağı salınmasını təmin etməklə, genişlənməkdə olan islahatların sürətlənməsinə təkan verməlidir. Bu zaman islahatların ilkin nəticəsi kimi əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsi təmin olunmalıdır. Bu məqsədlə büdcə siyasətində aşağıdakı istiqamətlərin həyata keçirilməsi nəzərdə tutulmalıdır:

- büdcə proqnozları iqtisadi cəhətdən tam əsaslandırılmalı, vergilərin real yığılma imkanları düzgün qiymətləndirilməlidir;
- büdcənin gəlir və xərcləri düzgün tarazlaşdırılmalı;
- qeyri-neft sektorunda iqtisadi inkişafa nail olmaqla, büdcə gəlirlərinin yığım əmsalının artımını təmin etmək;
- vergi borclarının azaldılması istiqamətində lazımı işlər görmək;
- vergitutma bazasının genişləndirilməsi, vergidən yayınma hallarının qarşısının alınması və vergi nəzarətinin gücləndirilməsi məqsədilə vergi qanunvericiliyini təkmilləşdirmək;
- vergitutma bazasının genişləndirilməsi və vergidən yayınma hallarının qarşısının alınması məqsədilə bəzi fəaliyyət növlərinə yalnız sadələşdirilmiş vergini tətbiq etmək;
- dövlət mülkiyyətinin özəlləşdirilməsinin sürətləndirilməsi hesabına özəlləşdirmədən daxilolmaların artımına nail olmaq;
- təyinatı üzrə əlavə dəyər vergisindən azadolmaların qanunla müəyyən edilməsinə nail olmaq;
- büdcə xərclərində əhalinin sosial müdafiəsi və sosial təminata, səhiyyəyə, təhsilə, elmə, tikintiyə və s. sosial yönümlü məqsədlərə ayrılan vəsaitlər artırmaq;
- dövlət büdcəsi kəsirinin strukturunun təkmilləşdirilməsi işini davam etdirmək;
- büdcə kəsirini inflyasiya yaratmayan mənbələr hesabına maliyyələşdirmək;
- dövlət qısa, orta və uzun müddətli istiqrazlarının buraxılması ilə qiymətli kağızlar bazarını daha da inkişaf etdirmək, dövriyyədə olan artıq pul kütləsinin daha səmərəli şərtlərlə cəlb edilməsi məqsədi ilə investor şəbəkəsini genişləndirmək, bu kağızlara olan tələbatı artırmaqla, normal rəqabət prinsipləri əsasında faiz dərəcələrinin tənzimlənməsinə nail olmaq.

## 5. Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu

”Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanunu büdcə sisteminin təşkilinin, büdcələrin tərtibi, təsdiqi, icrası və onların icrasına nəzarətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, habelə dövlət büdcəsi ilə büdcədənkənar dövlət fondlarının, yerli büdcələrin qarşılıqlı əlaqələrinin əsas prinsiplərini müəyyən edir.

Büdcə sistemi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikası Konstitusiyasından, bu Qanundan, bu Qanuna müvafiq olaraq hər büdcə ili üzrə qəbul edilən dövlət büdcəsi haqqında qanundan, digər qanunlardan və normativ hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Azərbaycan Respublikasında büdcə sistemini Azərbaycan Respublikasının dövlət büdcəsi (bundan sonra—dövlət büdcəsi), Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələr təşkil edir.

**Qanunda istifadə olunan əsas anlayışlar.** Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunun məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

**büdcə** - Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsi ilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir

**büdcə təsnifatı** - dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin, yerli büdcələrin və büdcədənkənar dövlət fondlarının gəlirlərinin, xərclərinin və maliyyələşmə mənbələrinin funksional, iqtisadi, inzibati və digər prinsiplər əsasında qruplaşdırılmasıdır

**büdcə ili** - yanvar ayının 1-dən dekabr ayının 31-dək olan bir illik dövrü əhatə edir

**büdcədənkənar dövlət fondları** - qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən hüquqi şəxs qismində təsis edilmiş və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondlarıdır

**icmal büdcə** - dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin (büdcədənkənar əməliyyatlar da daxil olmaqla) və büdcədənkənar dövlət fondlarının gəlir və xərclərini funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində əks etdirən maliyyə sənədidir

**büdcə kəsiri (defisit)** - büdcə xərclərinin gəlirlərlə təmin olunmayan məbləğidir

**büdcə artıqlığı (profisit)** - büdcə gəlirlərinin büdcə xərclərindən artıq olan məbləğidir

**dövlət büdcəsinin kassa icrası** - büdcə gəlirlərinin büdcəyə daxilolmasını və xərclərinin büdcə təsnifatına uyğun olaraq xəzinədarlıq vasitəsi ilə ünvanlı istifadəsini təmin edən icra mexanizmidir

**büdcə ssudaları** - dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə, yerli büdcələrdən bələdiyyə təşkilatlarına qaytarılmaq şərti ilə il ərzində müəyyən müddətə verilən maliyyə vəsaitidir

**dotasiya** - dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə onların gəlir və xərclərini tənzimləmək məqsədi ilə əvəzsiz verilən maliyyə vəsaitidir

**qrant** - daxili və xarici mənbələr hesabına əvəzsiz verilən məqsədli maliyyə yardımıdır

**subsidiya** - dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə əvəzsiz verilən maliyyə vəsaitidir

**subvensiya** - məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaitidir

**məqsədli büdcə fondları** - dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrin tərkibində konkret tədbirlərin həyata keçirilməsi üçün formalaşan və istifadə edilən pul vəsaitidir

**sekvestr** - dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrin , həmçinin dövlət büdcəsinin kəsirinin (defisitin) maliyyələşmə mənbələri üzrə daxilolmalar yerinə yetirilmədikdə, müdafiə olunmuş xərc maddələri istisna olmaqla, büdcə ilinin qalan ayları üzrə xərclərin müəyyən olunmuş qaydada ixtisarıdır

Dövlət büdcəsinin icrası prosesində dövlət büdcəsinin gəlirləri və onun kəsirinin maliyyələşdirilməsi üzrə faktiki daxilolmalar müəyyən olunmuş rüblük göstəricilərdən kənarlaşdıqda, dövlət büdcəsinin icrasında ahəngdarlığın, habelə onun gəlirləri və xərcləri arasında tarazlığın pozulması təhlükəsi yarandıqda dəyişikliklər aparılmaqla aradan qaldırılması mümkün olmadıqda, qanunvericilik təşəbbüsü qaydasında və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 2-ci bəndi nəzərə alınmaqla, may ayının 15-dən tez və oktyabr ayının 15-dən gec olmayaraq cari ilin dövlət büdcəsinə yenidən baxılması barədə Azərbaycan Respublikasının Milli Məclisi qarşısında məsələ qaldırıla bilər.

Dövlət büdcəsinin icrası prosesində dövlət büdcəsinin gəlirləri və onun kəsirinin maliyyələşdirilməsi üzrə faktiki daxilolmalar cari ilin ilk 6 ayının nəticəsinə görə müəyyən olunmuş göstəricilərdən **30 faiz az olduqda**, qanunvericilik təşəbbüsü qaydasında və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 2-ci bəndi nəzərə alınmaqla oktyabr ayının 15-dən gec olmayaraq Azərbaycan Respublikasının Milli Məclisi qarşısında dövlət büdcəsinə yenidən baxılaraq sekvestr tətbiq olunması barədə məsələ qaldırılır.

Dövlət büdcəsinin icrası barədə rüblük hesabatlarda büdcənin gəlirləri üzrə faktiki daxilolmalar həmin dövr üçün təsdiq edilmiş göstəricilərdən **20 faiz az olduqda** həmin hesabatlar Azərbaycan Respublikası Milli Məclisinin müvafiq komitələrində müzakirə edilir.

**müdafiə olunan xərc maddələri** - büdcə ili ərzində maliyyələşdirilməsinə sekvestr tətbiq olunmayan, qanunvericiliklə müəyyən edilmiş büdcə xərcləridir

1. əmək haqqı;
2. əmək haqqına üstəlik;
3. pensiya, başqa sosial müavinətlər və ödənişlər;
4. dövlətin daxili və xarici borclarına xidmətlə bağlı xərclər;
5. hər il üçün dövlət büdcəsi haqqında qanuna uyğun olaraq müdafiə olunması zəruri sayılan digər maddələr üzrə xərclər.

Dövlət büdcəsində, Naxçıvan Muxtar Respublikasının büdcəsində və yerli büdcələrdə nəzərdə tutulmayan xərclər, habelə dövlət və yerli əhəmiyyətli tədbirlərin həyata

keçirilməsi üçün dövlət büdcəsinin, Azərbaycan Respublikası Prezidentinin, Naxçıvan Muxtar Respublikası büdcəsinin və yerli büdcələrin məbləği müəyyən edilən ehtiyat fondları yaradıla bilər.

Dövlət büdcəsinin Ehtiyat Fondunun vəsaitinin həcmi **dövlət büdcəsi gəlirlərinin 5 faizindən artıq olmamaqla**, əvvəlki ildə bu Fondun xərcinin faktiki icrası nəzərə alınmaqla müəyyən edilir.

Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondunun vəsaitinin həcmi **dövlət büdcəsi gəlirlərinin 2 faizindən çox olmamaqla** müəyyən edilir. Bu Fondun vəsaiti ölkənin sosial-iqtisadi həyatında mühüm əhəmiyyət kəsb edən tədbirlərə yönəldilir.

Növbəti büdcə ili üzrə dövlət büdcəsi Azərbaycan Respublikasının Milli Məclisində cari ilin dekabr ayının 20-dən gec olmayaraq qanunla təsdiq edilir.

## 6. Dövlət büdcəsinin gəlirləri

Azərbaycan Respublikası dövlət büdcəsinin məqsədi ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və istifadəsini təmin etməkdir. Azərbaycan Respublikasının dövlət büdcəsi mərkəzləşdirilmiş gəlir və xərclərdən, yerli gəlir və xərclərdən ibarətdir.

**büdcə gəlirləri** - Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə orqanlarının müvafiq qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada dövlət büdcəsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalardır

**büdcə xərcləri** - büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və yerli büdcələrdən qanunvericiliklə nəzərdə tutulan tələbatı ödəmək üçün ayrılan vəsaitdir

**mərkəzləşdirilmiş gəlir** - dövlət büdcəsində müəyyən edilən normativlərə uyğun olaraq dövlət büdcəsi gəlirlərindən yerli gəlirlər çıxıldıqdan sonra formalaşan gəlirdir

**mərkəzləşdirilmiş xərc** - büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsində nəzərdə tutulan müvafiq orqanların fəaliyyətinin və tədbirlərin maliyyələşdirilməsi ilə bağlı xərclərdir

**yerli gəlir** - dövlət büdcəsində müəyyən edilən normativlər əsasında formalaşan ayrı-ayrı şəhər və rayonlar üzrə gəlirdir

**yerli xərc** - büdcə təsnifatına uyğun olaraq maliyyələşdirilməsi yerli gəlirlər və mərkəzləşdirilmiş gəlirlərdən ayrılan vəsait hesabına həyata keçirilən xərclərdir

## 6. Dövlət büdcəsi və vergi daxilolmaları

2020-ci ildə dövlət büdcəsinin gəlirləri **24 milyard 134,0 milyon manat** o cümlədən mərkəzləşdirilmiş gəlir **23 milyard 336 milyon** yerli gəlirlər isə **797 550 min manat**, büdcə xərcləri . **26 milyard 894 milyon manat** o cümlədən mərkəzləşdirilmiş xərclər **26 milyar 044 milyon** yerli xərclər isə **850 104 min** manat olmuşdur.

2019-cu ildə Fondun xərclərinin **11 595,2 mln. manat** olacağı nəzərdə tutulmuşdur ki, bu da 2017-ci ilin müvafiq icra göstəricisindən **579,7 mln. manat** və ya **5,3%** çox, 2018-ci ilin müvafiq proqnoz və gözlənilən icra göstəricilərindən **115,0 mln. manat** və ya **1,0%** çoxdur

### Cədvəl 1. Dövlət büdcəsinin gəlirləri (2019-2020)

| Göstəricilər (milyon manatla) | 2019-cu il | 2020-ci il |
|---|---|---|
| AR-nın Vergilər Nazirliyi | 7 015,6 | 7 645,0 |
| AR-nın Dövlət Gömrük Komitəsi | 2 291,6 | 2 250,0 |
| AR Dövlət Neft Fondu | 7 615,0 | 6 100,0 |
| Sair gəlirlər | 579,0 | 771,0 |

**Cədvəl 2. Dövlət büdcəsinin xərcləri barədə məlumat**

| Göstəricilər (milyon manatla) | 2019-cu il | 2020-ci il |
|---|---|---|
| Mərkəzləşdirilmiş xərcləri | **2437188** | 26044 |
| Yerli xərclər | **84281** | 85.010 |

Azərbaycan Respublikasının 2020-cı il dövlət büdcəsinin xərcləri 26 044 596 min manat, (o cümlədən, mərkəzləşdirilmiş xərcləri 23 336 950 min manat, yerli xərcləri 850 104 min manat,) məbləğində təsdiq edilmişdir.




Cədvəldən göründüyü kimi ölkə üzrə bütün vergi yığımları 2011-2018-ci illər ərzində artan dinamika ilə inkişaf etmişdir. Diaqramdan göründüyü kimi 2011-ci illə

müqayisədə bütün vergi yığımları 2018-ci ildə 5,334.1 milyon manat və ya 68% çox olmuşdur.

### 8. Büdcə siyasətinin təkmilləşdirilməsi

Dövlət büdcəsinin yeni sistemə uyğun olaraq təkmilləşdirilməsi üçün onun tərkibini və büdcə siyasətini müəyyən etmək əsas şərtlərdən biridir. Bazar iqtisadiyyatı şəraitində büdcə sisteminin tənzimlənməsi iki istiqamətdə aparılmalıdır :

1. • birinci növbədə dövlət büdcəsi tarazlaşdırılmalı;
2. • ikincisi, büdcənin gəlir və xərcləri bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılmalıdır.

Dövlət büdcəsinin layıhəsi hazırlanarkən ilk növbədə iqtisadi proqnozlaşdlrma göstəriciləri hazırlanmalıdır. Bu zaman iqtisadiyyatın meylləri və inkişaf istiqamətləri əsas götürülür.

### 9. Azərbaycan Respublikasının 2020-ci ilin dövlət büdcəsi

Azərbaycan Respublikasının 2020-cı il dövlət büdcəsinin gəlirləri 24 134 500,0 min manat, xərcləri 26 897 700,0 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 23 336 950 min manat, yerli xərcləri 797 550,0 min manat) məbləğində təsdiq edilmişdir.

Azərbaycan Respublikasının 2020-cı il dövlət büdcəsinin xərcləri 26 044 596 min manat, (o cümlədən, mərkəzləşdirilmiş xərcləri 23 336 950 min manat, yerli xərcləri 850 104 min manat,) məbləğində təsdiq edilmişdir.

### 10. Nəzarət sualları

1. Məcmu tələbin, məşğulluğun və gəlirin səviyyəsinə təsir etmək üçün dövlətin xərclərdən, vergiqoymadan və borclanmadan istifadə edərək həyata keçirdiyi siyasət necə adlanır?

2. Dövlətin mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının yaradılmasının əsas məqsədi nədir?

3. Büdcənin gəlir və xərclərinin, habelə büdcə kəsirinin idarə edilməsi ilə əlaqədar dövlət tərəfindən hansı tədbirlər həyata keçirilir?

4. Dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin, yerli büdcələrin və büdcədənkənar dövlət fondlarının gəlirlərinin, xərclərinin və maliyyələşmə mənbələrinin funksional, iqtisadi, inzibati və digər prinsiplər əsasında necə qruplaşdırlır?

5. Qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən hüquqi şəxs qismində təsis edilmiş və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondları necə adlanır?

6. Dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə, yerli büdcələrdən bələdiyyə təşkilatlarına qaytarılmaq şərti ilə il ərzində müəyyən müddətə verilən maliyyə vəsaiti necə adlanır?

7. Məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmi° müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaiti necə adlanır?

8. Dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə əvəzsiz verilən maliyyə vəsaiti necə adlanır?

9. Konkret dövr üçün ölkədə maliyyə vəsaitlərinin yaranma mənbələri və istifadə istiqamətləri barədə məlumatları özündə əks etdirən maliyyə sənədi necə adlanır?

10. Büdcə gəlirlərinin büdcəyə daxilolmasını və xərclərinin büdcə təsnifatına uyğun olaraq xəzinədarlıq vasitəsi ilə ünvanlı istifadəsini təmin edən icra mexanizmi necə adlanır?

11. Büdcə kəsiri hansı mənbələr hesabına maliyyəşir?

12. Büdcə gəlirlərinin büdcə xərclərindən artıq olan məbləği necə adlanır?

13. Dövlət büdcəsində müəyyən edilən normativlərə uyğun olaraq dövlət büdcəsi gəlirlərindən yerli gəlirlər çıxıldıqdan sonra formalaşan gəlir necə adlanır?

14. Azərbaycan Respublikasının adından bağlanılmış müqavilələrin öhdəlikləri üzrə ödənilməli olan borc necə adlanır?

15. Büdcə ili hansı dövrü əhatə edir?

## 11. Müstəqil öyrənmə üçün tapşırıqlar

1. Dövlət büdcəsinin icrasına nəzarəti həyata keçirən orqanlar haqqında;

2. Büdcədənkənar fondlar haqqında ətraflı məlumat.

3. "Azərbaycan Respublikasının 2020-cı il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu

4. "Azərbaycan Respublikasının 2019-cı il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı

6. "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi 2019-cu il dövlət büdcələri arasında fərqlər

## 12. Ədəbiyyat


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi
2. Azərbaycan Respublikasının Konstitusiyası.
3. ”Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanun
4. “Azərbaycan Respublikasının 2016-cı il Dövlət Büdcəsi haqqında qanunu
5. “Azərbaycan Respublikasının 2017- ci il Dövlət Büdcəsi haqqında qanunu
6. “Azərbaycan Respublikasının 2018-ci il Dövlət Büdcəsi haqqında qanunu
7. Z.Vəliyev Büdcə sistemi . Bakı 2012
4. Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə. Büdcə sistemi. Bakı, 2003
9. Ələkbərov Ə.Ə. Azərbaycan Dövlətinin sosial-iqtisadi inkişafında vahid büdcə sisteminin rolu. Bakı, 2005
10. http://www.maliyye.gov.az/